# Anar məlimin humanistliyi?
# آنار معلیمین هۇمانیست لیـیی

**azərbaycanın uzun və qısa vədəli mənafei açısından dəyərləndirməkdir.Azərbaycançılıq tűklűk məfhumunuda içində daşır.»**

Azərbaycan iki əsas hissəyə ayrılanda quzey həssə 180 min metrműrəbə(kuadratmetr)idi. Indi bu ərazidən jalnız 60-70 min metrműrəbə qalmışdır. Anar məlim bu haqda bir şey danışmır. űstűndən qeçir. Soviyet sistemini sözdə intiqad etsədə, cinayətkar Rusları Azərbaycanı qərb mədəniyyətinə yaxınlaşdırdıqlarını idea edərək övűr. Anar məlim unudurki, soviyet rusiyası Azərbaycanı işğal etmənişdən qabaq Quzey azərbaycan daha çox qərbin təsirində olmuş və bűtűn Bakıda olan binalar, həttа Opera binasıda soviyet dövrűndən qabaqki dövrəyə ayiddir. Anar bəyin bəyəndiyi cinayətkar ruslar Azərbaycanı işğal edib, 70 Azərbaycanı soyub- talamasaydılar bugűn Azərbaycan şərqin gəlişmiş zəngin ölkəsi olmaqla yanaşı mədəni cəhətdə'də qərbə ən yaxın ölkə ola bilərdi. Anar məlim műstəqil dűşűnməyə adət etmədiyindən , hənuz ki, hənuzdur cinayətkar rusların 70 il ona dediklərini tikrarlayır, elə buna görədə Nərimanof kimi vətən xayinlərini xadim kimi göstərməyə çalışır.

Anar məlimin dűşűncələri elə haman eski dűşűncə sistemindən qaynaqlandığından bűtöv Azərbaycanı ələ alib, tarixi probləmlərin qaynaqlarını araşdırıb, dűzgűn nəticə çıxartmaq yerinə , bir qarış bu gűnkű quzey Azərbaycanı elə aldığından yalnış nəticə əldə etmişdir. hetta o saydığı bəzi faciələrin səbəbini və səbəbkarını dilə gətirməmişdir. və nəhayətdə humanistlik adı altıda Təslimçiliyi tovsiyə etməyə çalişmişdir. əlbətdə Anar məlimin yzdıqlarının hamisına cəvab verməkuzun işdir, və nəticəsizdir. Bu yazinin təfərűatına geçmədən iki movzunu ələ almaq istədik. birincisi erməni cinayətkarlarını dost kimi göstərməsi və qondama ermənistan «ermənistan!» kimi qəbul etməsidir. dediyiniz kimi onlar uşaqlarına Tűrk- Azərbaycan dűşmənçiliyini aşılayirlar. Buna baxmıyaraq onların 90 fayizi bizi özlərinə dűşmən saysalarda size görə onlar «dost» millət sayılırlar.göresen anar məlim nə tez öz geçmişini unudub belə bir humanistliyə qapılmışdır? bələ bir humanistliyi bələ bir fantazini 40 ' il avrupada yaşasamda görməmişəm. bu xuliyaçılıqdan, təslimçilikdən, özűnű kiçik görməkdən başqa bir şey deyildir.

Tarixdən başı çixan birisi bunu yaxşı bilir ki, Arazin quzey hissəsində və qəfqazda tarixdə «Ermənistan» diyə bir yer olmamışdır. Tarix boyu Ermənistan bugűnkű Tűrkiyə ərazisində yəni van gölűnűn gűney və qərbində yer almışdır. Indi Azərbaycanın aydın və ziyalisi, űstəlik özűnű yazıçı kimi göstərməyə çalışan birisi Azərbaycanın tarixi ərazilərində cinayətkar rusların yaratdıqları « qondarma ermənistani» «Ermənistan» tanıması və onun faktiki movcudiyyətini qəbul etməsi qəbul edilməzdir . bu humanistlik yox, milli xəyanətdir. əgər bizdə özűműzű sözűn tam mənasında millət saysaydıq, belə qondarma humanistlik yerinə ,uşağından böyűyűnə qədər silaha sarılardıq, həm yeni və həmdə eski işğal olunmuş bűtöv ərazilərimizi azad edərdik. Vətən işqalından hakimiyəti qorumaq űçűn yararlanmazdıq. vətənin işqalını unudub necə diyərlər bizneslik məşqinə dűşməzdik , dollar qazanmaq , bankalara toplamaq, son model maşinlar almağa həris olmazdıq. Cinayətkar rusları xoxucu kimi millətimizə göstərib, təslimçiliyi təbliğ etməzdik. keçici kabinet, məqam hakimiyyət űçűn vətənimizə yerləşən və ev sahibini eşiyə salan ermnəni quldurlarına yűksək istatus vermek məşqinə dűşməzdik . gűrűnűrki haman şəxsilər , elə Anar məlimin təhsil aldığı və tovsiyə etdiyi humanistlik məktəbində təhsil almışlar. bunuda xatırlatmaq lazimdir ki, Borçalida , Dərbəndidə, Irəvanda azərbaycandir.

Anar məlimin yazısında ikinci əsas məsələ Gűney azərbaycandır. görűnűrki haman soviyet dűşűncə tərzi buradada özűnű göstərməkdədir. o , öz yazisinda Gűney Azərbaycanla yanaşı başqa işğal olunmuş azərbaycan ərazilərini unudur , başqalarınada bu untmağı tovsiyə edir. və bir qarış qalmış bugűnkű quzey Azərbaycanı yalniz Azərbaycan olaraq tanır. ona görədə ilk başda dediyimiz kimi Azərbaycanın həqiqi probləmlərini analiz etməkdən acizdir.

Almanlılar ikinci dűnya savaşından sonra iki əsas hissəyə bölűndűkdə həç vaxt bunu qəbul etmədilər. Alman məsələsi həl olmamışdır, dedilər. Buna işğal altinda yazdıqları anayasadada yer verdilər. bűtűn siyasətlərini hərəkətlərini bununla əyarladılar. nəhayətdə həm avrupalisina , həm amərikalısına və həmdə rusuna bunu qəbul etdirdilər və birləşdilər.yadları ölkələrindən eşiyə saldılar. və avrupa birliyini yaratdılar, və başqalarına öz fikirlərini diktə etməyə başladılar. bunun səbəbi özlərinə sözűn tam mənasinda bir millət olaraq gövənmələridir. millət olamaq bu sadəlikdə deyildir. əməldə millət olmağı sabit etmək lazimdir.

Bunuda xatırlatmaq gərəkir ki, ermənilərin Azərbaycan ərazisində necə yaşaması haqında ancaq 40 milyonluq Azərbacan milləti qərar verməlidir.

Mən bir Azərbaycanlı olarq Anar məlimin gűney Azərbaycan haqda dediklərinə utanıram. kaşki bu yazını yazmamış olaydı. Özűnű necə diyərlər Azərbaycan yazıçısı bilən bir şəxsin vahid bir milləti , vahid bir torpağı bu şəkildə dırnaq arası humanistliklə görməməzlikdən gəlməsi və gűneyi iranın və başqa yerləri başqasınınki kimi görməsi bir faciə deyildirmi?! Bu millətə , vətənə xəyanət sayilmırmı?!

Buna şűkr etmək lazimdirki, erməni caniləri yaxşı ki, Bakıya qədər gəlməmişlər, yoxsa Anar məlimin humanistlik dűşűncəsinə görə oralaraıda onlara bağışlardıq.

Görűnűr ki, bizim sözdə bu ziyalımız hələ mərhələdən çox- çox uzaqdadır. realıqda yox royalarda yaşamaqdadır. əlbtdə ondada qinamağa gəlməz. Bu Rus asimilasiyonunun bir göstərricisidir. Rus tərbiyəsinin məhsuludur. bu asimilasiya haman yazıda ruslar haqda dediklərindədə özűnű göstərməklə bərabər, hələdə Rus və erməni dűşmənini dost kimi görməkdədir.

Yox Hörmətli qardaşım Anar! Gűney Azərbaycan bugűn iran adlanan yerin trkibndə olub , fars şovonizminin műstəmləkəsində yaşasada ora Iran deyil ora Azərbaycandır. özűdə Azərbayanın bölűnməz , vaz geçilməz ana parçasıdır. Onun azadlığına çalışmaq özűnű Azərbaycanlı bilən hər kəs űçűn gűnűn çörəyi kimi vacib və zəruridir. Gűneysiz Quzey Azərbaycan sözűn tam mənasinda műstəqil ola bilməz . sözdə műstəqil olaraq qalar. Humanistlik boyasi ilə Rus- erməni və farsların siyasətlərini təbliğ etmək özűnű Azərbaycanlı bilən birisinə yaraşmaz. Hər ölkənin ziyalısı, aydını, şairi, sənətçisi, siyasətçisi .... ilk başda öz millətini , öz vətənin uzun və qisa műdətli mənafeini dűşűnməlidir. öz millətinə çiraq olmalıdır. məxsusən , yadlar əli ilə tikə- parça olmuş bir ölkənin ziyalısının, yazıçı - şairininin və sənətçisinin boynuna ağır vəzifələr dűşməkdədir. **Hələ bizim sivis, Alman ,fransa olmaq , asudə yaşayıb dollar qazanmaq vaxtımıza çox qalır.**

Bugűn biz millətimizə Anarçılığı yox , həqiqi Azərbaycançılığı, onun siyasi cəhətlərini açıqlamalıyıq. Rəhmətlik xəlil riza olmalıyıq. od olmalıyıq. lazim gələrsə silah ələ almalıyıq. savaşmalıyıq. ölməliyik- öldűrməliyik , millət olduğumuzu əməldə sabit etməliyik. Bir aydin- ziyalı, yazıçı ,şair və sənətçi olaraq bunu bacarmırsaq, bu adları daşımamalıyıq. kənara çəkilib sadə bir vətəndaş kimi yaşamalıyıq. çűnkű indilik biz anar məlimin tovsiyə etiyi humanistlik yarışı yox, vətənimizin movcudluğunu qorumaq , qurtuluşu űçűn savaşı aparırıq. Azərbaycançılıq siyasi bir məfhumdur. o, muqəddəsdir, onun űçűn fedakarlıq, ölmək, candan , maldan , kabinetdən , məqamdan addan və şöhrətdən geçmək lazimdir.

Bu yazı Anar məlimi təhqir etmək űçűn yox , ona həqiqətləri xatırlatmaq űçűn yazılmışdır.

# آمئریکانین وئتوسۇ ، منطقه وه دئموکراسی
# Amerikanın vetosu, mntəqə və demokrasi

آمئریکا بۇ حرکتی ایله عرب وه ایسلام اؤلکه لرینده ذاتا مؤوجۇد اؤلان آمئریکایا قارشي نیفرتی داها شیدتلندیرمیشدیر . ایسلام فۆندامئنتالیزمینه داها اۇیقۇن بیر زمین یاراتمیشدیر . آمئریکا بۇ عملی ایله اۆنۇن تئرۆریزمه قارشي اعلان ائتدییی مۆباریزه‌سینه منفی تاثیر قۆیۇب ، تئرۆریزمین شیدتلنمه‌سینه سبب اۆلاجاقدیر .

دونیانین بۇ بۆلگه سینده کی مسلمان اۆلکه لری‌نین چۆخۇ ، مخصۇصن عربلر ایسراعیلی منطقه ده آمئریکانین نۇمانده سی وه پایگاهي کیمی گۆرورلر . آمئریکانین بۇ وئتۆسۇ اۆنلارین گۆروشلرینی تایید ائتمک معناسینادا گه لیر . اۆنلار ایسراعیل دۆولتی‌نین هرجور تجاووز وه تئرۆریست حرکتی‌نین آمئریکا طرفینده ن حمایت اۆلدۇغۇنۇ گۆ ردوکلری اوچون اۆنلاردا نیفرت بۇ ایکی اۆلکه یه قارشي

آردي ۴- نجو صحیفه ده